12 ЛИТЕРАТУРА

Поэт – сын поэтов

Народному писателю Азербайджана Анару исполнилось 85 лет

"Literaturnaya qazeta" (15-21 mart) Xalq yazıçısı Anarın 85 illiyilə bağlı ona "Şairlər oğlu şair" başlıqlı bir səhifə ayırmışdır.

Səhifədə deyilir:

"Sənətkar, filosof, ensiklopedist, Azərbaycan, rus və dünya mədəniyyətinin dərin bilicisi... Azərbaycan Yazıçılar Birliyinin sədri, Şairlər oğlu özü də ilahi yanaşmayla şair olan Anar söz sənətində təkrarsız, duyğularının dərinliyi etibarilə seçilən bütöv bir dünya yaratmışdır. Anar... Rusiya oxucuları bu adı gözəl nəsr örnəkləri, əsərləri əsasında çəkilmiş filmlərlə tanıyırlar. İllər boyu "Literaturnaya qazeta" səhifələrində Anarın yazıları və onun yaradıcılığı barədə ən mötəbər Sovet və rus tənqidçilərinin məqalələri dərc olunmuşdur. Anarın yubileyilə bağlı yazıçının arxivindən görkəmli qələm dostlarının məktublarını dərk edirik.

Köhnə dostumuzu və müəllifimizi yubileyi münasibətilə təbrik edirik, cansağlığı və yeni yaradıcılıq uğurları diləyirik.

Səhifədə Çingiz Aytmatovun Anar haqqında sözləri, Viktor Astafyevin, Rimma Kazakovanın, Oljas Süleymenovun Xalq yazıçısına məktubları dərc olunmuşdur.